Xalqının yubileyini yaşayan Dahi 130

(Üzeyir Hacıbəylinin yubileyi ərəfəsində düşüncələr)

...Onun həyatını, yaradıcılığını, taleyini oxuyub öyrəndikcə bir daha əmin oluruq: O, xoşbəxt bir insan idi! Ulu Tanrının xalqımıza seçilmişlərdən idi! Ulu Tanrının xalqımıza bəxş etdiyi bu nadir şəxsiyyət öz qüdrətli zəkası ilə, nəhayətsiz istedadı ilə, zəhmətsevərliyi və cəfakeşliyi ilə, qeyrəti və təəssübkeşliyi ilə və nəhayətdə, Vətəninə və xalqına sonsuz sevgisi ilə seçildi, yaratdıqları ilə xalqının taleyini dəyişdi, tarixə yeni-yeni əlvan sahifələr, gözəlliklər bəxş etdi.

130 yaşı tamam olan Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli dünyaya göz açanda Vətəni Azərbaycan artıq bir əsrə yaxın zaman kəsiyində rus istilasından əzab çəkirdi. Adı dəyişdirilmiş şəhərlər, kəndlər, yad millətlərə peşkəş edilmiş bərəkətli torpaqlar, xalqın hər vəchlə kökündən, tarixindən, mədəniyyətindən məhrum edilməsi - göz dağı, ürək ağrısı idi. Bağrı yanmış Vətənə **"böyük oğullar"** gərək idi. O oğullar ki onun yaralarına məlhəm olsun, zəka-oğullar ki onun yaralarına məlhəm olsun, zəkası ilə, qəlbi ilə, hünəri ilə, əqidəsi ilə xalqının yesidən baş qaldırıb dirçəlməsini gerçəkləşdirsin.

Tale uşaq yaşlarından Üzeyir Hacıbəylini sanki qeyri-adi, müstəsna bir yolun yolçusu etməyə qərar vermişdi. Uşaqlıqdan sadə, təəssübkeş, istedadlı insanların arasında olması, onun əxlaqına, tərbiyəsinə, dünyagörüşünə, mənəviyyatının zənginləşməsinə zəmin yaratmışdı.

Sonralar Üzeyir bəy yazacaqdı: ***"...Mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam. O vaxt mən "muğam" və "təsnif" oxuyardım. Səsim xanəndələrin xoşuna gələrdi. Onlar məni oxudar və öyrədərdilər".***

Demək, Azərbaycan xalqının mənəviyyatını daim qidalandıran, mənalandıran, saflaşdıran ulu muğamlar artıq uşaq yaşlarından Üzeyir bəyin canına, qanına hopmuşdu. Bu fakt özü də onun erkən yaşlardan xalq musiqisinə, xalq yaradıcılığına bağlı olmasına işarədir.

Böyük ədibimiz Abdulla Şaiq xatirələrində yazmışdı: ***"1896-cı ildə Şuşa şəhəri müəllimlərinin və Nikolayevski məktəb tələbələrinin iştirakı ilə "Dağılan tifaq" faciəsi tamaşaya qoyulur.***

Xandəmirovun böyük salonunda keçirilən bu tamaşanın rejissorluğunu Haqverdiyev özü edirdi. Rollar müəllimlər və tələbələr arasında paylanır. Məktəblilər nağmələri Ü.Hacıbəyli və başqaları oxuyarmış..."

Məktəbli ikən yaradıcı insanların arasında olmaq, onlarla bərabər səhnəyə çıxmaq artıq Üzeyir bəyin özünü ilk əsərlərini yaratmağa sövq edir. Belə ki, 1898-ci ildə onun kiçik xalq nağıllarını əsl ilə yazaraq kitabça şəklində tərtib etməsi və **"Kitabi məzhəka"** adlandırdığı bu məcmuəyə nəzişlı üz qəbiği və bir çox şəkillər çəkməsi artıq onun geniş yaradıcılıq potensialından xəbər verirdi.

Balkə də bu daxili yaradıcılıq coşqusu sonradan onun Qori müəllimlər seminariyasında oxuyarkən bir musiqiçi kimi yetkinləşməsinə zəmin yaratdı. Belə ki, başqa tələbələr bir alətdə çalmağa cəhd edərkən, Üzeyir Hacıbəyli həm nəfəsli alətlərdə, həm violino, həm violonçel alətində tələbə orkestrinin heyətində həvəsla ifa edirdi. Xor dərslərində də fərqlənən Üzeyir bəy tezliklə aparıcı səslərdən əlavə II, III səsləri də məharətlə oxuyur, bir neçə Azərbaycan xalq mahnısını xor üçün işləyir.

Lakin musiqi fənlərindən qazandığı müvəffəqiyyətlər gənc Üzeyir bəyin qəlbində yaşatdığı böyük arzuları heç də tam əhatə etmirdi. Gələcəkdə onun həyat yoluna çıraq tutacaq bu arzular ara-sıra dilə gəlsə də, bunlar birmənalı qarşılanmırdı. Üzeyir bəy yazırdı: ***"...Mən seminariyanın ikinci klasında idim ki, ilyarımdan sonra müəllim olacaqdım. Yazı imtahanı olmaq üzrə "Mən gələcəkdə nə iş görəcəyəm" sərlövhəsi altında bir məqalə yazmağı bizə əmr etdilər. Mən yazdım ki, məktəblərimiz üçün ana dilində tədris olunmaqdan ötəri dərs kitabları tərtib edəcəyəm. Bunun üçün Osmanlı və rus kitablarından istifadə edib hesab, coğrafiya və s. elmləri öz dilimizə tərcümə edəcəyəm... Mənim bu fikrim direktorun xoşuna gəlməmişdi...".***

Əlbəttə, əsərətdə saxladıqları xalqların xoş iqbalını, işıqlı gələcəyini heç cür görmək istəməyən rus millətçiləri gənc tələbənin belə cəsarətli fikirlərinin həyatda gerçəkləşməsini heç istəmirdilər. Lakin zamanın çarxı fırlanır və geri də dönür. Az sonra, 1907-ci ildə Üzeyir Hacıbəylinin yazdığı **"Hesab məsələləri"** dərsliyi və siyasi, iqtisadi, hüquqi, əsgəri sözlərə dair **"Rus-Türk, Türk-Rus lüğəti"** kitabları nəşr olunacaqdı, gənc müəllimi şöhrətləndirəcəkdi.

...1904-cü ildə Üzeyir Hacıbəyli Qori müəllimlər seminariyasını bitirdi. Bakıya can atsa da, onu Qarabağın uzaq kənd məktəbinə müəllim təyin etdilər. Lakin gənc müəllimin fəaliyyəti çox fərqli idi. O, tez-tez uşaqlarla gəzintiyə çıxır, sadə insanların məişəti ilə tanış olurdu. Tarlada zəhmət çəkən əkinçilərin güzəranı, iş vaxtı onların oxuduqları əmək mahnıları gənc müəllimi çox maraqlandırırdı. Çox sonra dostu Müslüm Maqamayevlə tərtib etdiyi **"El nəğmələri"** məcmuəsində bir neçə əmək mahnıları da orda özünə yer alacaqdı. Hətta gənc müəllimin tələbi ilə bu uzaq kənd məktəbinə fortepiano aləti alındı və uşaqların musiqi dərsi tamam yeni bir mənaya doldu.

Balkə də düşünmək olardı ki, öz müəllim peşəsini, dərs dediyi şagirdləri bu qədər böyük sevgi ilə, məhəbbətlə sevən gənc müəllim hələ uzun illər həyatını bu qayda ilə sürə bilərdi. Lakin tale onu daha mühüm, daha vacib, daha qüdrətli işlər görmək üçün səfərbər edirdi.

Artıq qanlı-qadalı 1905-ci il çar Rusiyasının mərkəzlərindən uçqarlara qədər öz məşum izlərini buraxmaqda idi. Hələ 1904-cü ilin son aylarında Bakıda "Kaspi" qəzetində **"U"** imzalı naməlum müxbir Qarabağın, Cəbrayıl qəzasının xalq maarifi işindən, iqtisadi vəziyyətindən, baş almış xəstəliklərdən və s. bəhs edən yazılar dərc etdirirdi.

Bu naməlum müxbir 1905-ci ildə isə Cəbrayıl qəzasında baş verən erməni-müsəlman toqquşmalarından, ermənilərin Dəvəli, Qarabulaq, Qoçəhmədli, Sərdarlı kəndlərində törətdikləri qətl və qarətlərdən yazır, xalqı böyük bəlaların gələ biləcəyindən xəbərdar edirdi. Bu gənc müxbir Üzeyir bəy Hacıbəyli idi. Tale onu yenə Vətənin dar günlərində ilk sıralarda olaraq sinəsini bəlalara sipər etməyə çağırırdı. Lakin şər qüvvələr gənc müəllimin fəaliyyətindən duyuq düşərək onu aradan götürmək istərkən yenə tale Üzeyir bəyə yar oldu. Sevənləri gecə ikən onu kənddən çıxanb Bakıya yola saldılar.

1905-ci ilin II yarısında gənc Üzeyir Hacıbəyli artıq Bakıda fəaliyyətə başlamışdı. **"Kaspi"** qəzeti ilə əməkdaşlığında qazandığı jurnalistlik təcrübəsi sayəsində onun məsləkdaşlarının hüşyarlığı, doğruçuluğu, prinsipiallığı sayəsində ADR zamanı ermənilərin torpaq iddiaları, qanlı cinayətləri layiqli cavabını almışdı. O dövrdə **"Azərbaycan"** qəzetinin baş redaktoru olan Üzeyir bəy erməni-daşnak fitnələrini bir an belə nəzərdən qaçırmır, onların cinayətlərini, rüsvayçı işlərini tez-tez mətbuata çıxarırdı. Üzeyir bəyin bu məsələdə cəsarəti və huşyarlığı bu gün bir nümunə, bir məktəb kimi öyrənilməlidir.

Lakin unutmayaq ki, Üzeyir Hacıbəyli heç vaxt şovinist olmayıb, əksinə, bütün dünya millətlərinə hörmətlə yanaşıb, onun dostları arasında rus, yəhudi, erməni, gürcü, fars, tacik və bir çox digər xalqların nümayəndələri olub. Bir çox digər xalqların nümayəndələri olub. Bir çox əsərlərinin geniş yayılmasında məhz bu dostluğun da xüsusi rolu olmuşdur. Tiflisdə ermənilərin nəşr etdirdiyi "Məşak" qəzeti 1916-cı ildə yazmışdı: ***"Erməni musiqili teatrının əsası "Arşın mal alan" operettası ilə qoyulub".***

İlk erməni bəstəkarlarından olan A.Tiqranyan isə səmimi etiraf etmişdi ki, onu bəstəkarlığa sövq edən və "Anuş" operasını yazmağa vadar edən məhz Üzeyir Hacıbəyli və onun **"Leyli və Məcnun"** operası olmuşdur (*bax: Əfrasiyab Bədəlbəylinin xatirələri*).

Lakin Üzeyir Hacıbəylinin ətrafında fəaliyyət göstərən, onunla ünsiyyətdə olan erməni musiqiçiləri heç də həmişə saf, səmimi olmamışdılar. Üzeyir bəylə rəsmi müqavilə bağlayıb, onun **"Arşın mal alan"** operettasını erməni dilində çar Rusiyasının bir çox şəhərlərində səhnəyə qoymağa icazə alan Sedrak Maqalyan tezliklə müqavilənin şərtlərini pozur, operettadan gələn mənfəəti tək mənimsəyir, var-dövlət sahibi olur. 1921-ci ildən ABŞ-a köçən S.Maqalyan **"Arşın mal alan"**ı bir çox şəhərlərdə səhnəyə qoyur, sonra əsəri öz malı kimi Hollivudun erməni əsilli rejissoru R.Mamulyana satır. O da 1937-ci ildə eyni adlı filmini çəkir.

Lakin bir həqiqət də var idi ki, **"Arşın mal alan"** operettası erməni sənətçilərinin xain münasibətinə rəğmən çoxdan öz uca şöhrət taxtında əyləşmişdi və həm müəllifinə, həm xalqına, həm doğma Azərbaycana rəğbət qazandırır, məhəbbət bəxş edirdi. 1917-ci ilin 16 fevralında "Molla Nəsrəddin" jurnalı yazırdı: ***"Amerikanın Nyu-york şəhərində çıxan bir qəzet xəbər verir ki, Amerikanın teatrlarında da "Arşın mal alan" operettasını təzəliklə oynamağa başlayıblar.***

Bən də bunu ərz edə bilərəm ki, altı aylıq səyahətimdə gördüm ki, Aşqabaddan tutmuş Daşkəndə, Orenburqa, Samara, Saratsin, Həştərxan, Petrovski, Vladiqafqazda küçə və bazarda "Arşın mal alan"dan savayı özgə söhbət yoxdur..."

Doğrudan da, **"Arşın mal alan"** operettasının şöhrəti ilə rəqabətə girə biləcək musiqili səhnə əsərləri çox azdır. Bu əsər Azərbaycanın musiqi mədəniyyətində bir zirvə olmaqla bərabər, həm də ölkəmizi, xalqımızı ləyaqətlə təmsil edə bilən mənəvi pasportumuza çevrilmişdir.

Təsadüfi deyildi ki, 23 ay ömür sürən ADR dövründə milli musiqi mədəniyyəti sahəsində ən parlaq nümunə kimi hökumətimiz məhz **"Arşın mal alan"**ın Fransada göstərilməyi planlaşdırmışdı.

II Dünya müharibəsinin qızğın çağında SSRİ kimi fövqəldövlətlə başçılıq edən İ.V.Stalin **"Arşın mal alan"**ı ekranlaşdırmağı qərarlaşdırmışdısa da, bu addım təkcə Hollivudun erməni sənətçilərinin ortaya çıxardığı bədnam bir filmə cavab deyildi. Bir sənət əsəri kimi gözəl, mükəmməl, hər bir xalqın zövqünü oxşamağa qadir olan **"Arşın mal alan"**, əlbəttə, SSRİ-yə başqa mənəvi və maddi dividendlər gətirəcəkdi. Elə də oldu. 70-ə yaxın dilə dublyaj olan **"Arşın mal alan"** filmi dünyanı ölkə-ölkə, şəhər-şəhər, kənd-kənd səyahət edərək müəlliflə bərabər, SSRİ-ni də şöhrətləndirir və ölkə xəzinəsinə heç bir filmin gətirmədiyi milyonlarla valyuta qazandırdı.

1919-20-ci illər **"Azərbaycan"** qəzetinin baş redaktoru olduğu zaman Üzeyir Hacıbəyli bir mücahid kimi qələminin silaha çevirib, illərboyu xalqın arzuladığı müstəqil dövlətimizin keşiyində durmuşdu. Hətta bəstəkarlıq işində bir qədər sənginə, durğunluq yaranmışdı. Bir vətəndaş, bir jurnalist, bir ictimai xadim kimi ətrafda baş verən bütün hadisələri dərindən öyrənir, təhlil edir və cavablandırırdı. Əslində Ü.Hacıbəylinin "Azərbaycan" qəzetində dərc etdirdiyi məqalələrdunun müzəffər zərbələrinə bərabər idi. Bolşevik və erməni xainlərinin Azərbaycan sərhədlərində, hücuma hazır olduqları bir zamanda belə Üzeyir bəy cəsarətlə, hünərlə, qorxmadan öz haqq sözünü millətə bəyan edirdi. 25 aprel 1920-ci il dərc etdirdiyi məqalədə yazırdı: ***"Hətta bunu da deyim ki, Azərbaycanda bolşevik hökuməti qurublar, Əliheydər Qarayevi onun başına qoysan o halda sovet hökumətinin "bizə dəyməz" deyə xəyal edənlərə xam xəyal sahibi demək olar, amma xalı və gəbəyə mütləqən xammal demək olmaz".***

...Bəli, 28 aprel 1920-ci ildə Bakıda bolşevik çevrilişi oldu və Əliheydər Qarayev hakimiyyətə gəldi, kütləvi həbslərə, qətl və qarətlərə rəvac verdi. Üzeyir Hacıbəyli də həbs olunanlar arasında idi. Hə yaxşı ki, Nəriman Nərimanov bu həbsdən vaxtında xəbər tutub, Üzeyir bəyi məhbəsdən çıxara bildi. Üzeyir Hacıbəylinin həyatının yeni dönəmi başladı. Artıq bu dönəmdə ona ölkənin siyasi işlərinə müdaxilə etməyə imkan verilmirdi. Həm də yalan, iftira, qətl, qarətlə hakimiyyətə gələnlərlə Üzeyir bəyin bir masa arxasında oturmağa heç meyli də yox idi. O öz gücünü, qüvvətini, elmini, istedadını daha vacib işlərə — millətin mədəniyyətinin, elminin yüksəlməsinə, güclənməsinə sərf etməyi daha üstün tutdu.

XX əsrin 20-ci illəri Üzeyir Hacıbəylinin ən geniş fəaliyyəti — musiqi maarifi sahəsinə həsr olundu. Azərbaycan musiqi incəsənətini dünyada əminliklə təsdiq etməkdən ötrü əsaslı tədris müəssisələri, musiqi məktəbləri, milli kadrları yetişdirəcək konservatoriya təsis edilməli, dərsliklərı, proqramları əhatə edəcək geniş layihələr yaradılmalı idi. Bu ağır və şərəfli vəzifəni də Üzeyir bəy həyata keçirdi.

26 noyabr 1921-ci ildə Fransaya, qardaşı Ceyhun Hacıbəyliyə məktubunda yazırdı: ***"...Mən bu il müsəlmanlara məxsus olmaq üzrə bir konservatoriya açdım, bu saat orada iki yüzdən artıq məktəb şagirdi oxuyur. Bir həftə əvvəl rəsmi-güşadı idi. Bütün komissar yoldaşlar başda Nərimanov olmaq üzrə gəlmişdilər. Təbrik nitqdən sonra çay verdim, çox canfəşanlıq oldu. Hökumət mənə hər bir barədə kömək edəcəyini vəd etdi. Həqiqətən, bu konservatoriyanın bizim müsəlmanlardan ötrü mənası olacaqdır...".***

Bu müdrik sözlər az sonra həqiqətə çevrildi. Asəf Zeynallı, Səid Rüstəmov, Qara Qarayev, Soltan Hacıbəyov, Fikrət Əmirov və neçə-neçə böyük bəstəkar və ifaçı nəsli dahi Üzeyir Hacıbəylinin "şinelindən çıxmış oldu".

1937-ci ildə "Koroğlu" operası meydana çıxanda artıq Üzeyir bəyin yetişdirdiyi gənc, istedadlı musiqiçi nəsli mətin bir ordu kimi öz müəllimlərinə arxa idilər. Bu tələbələrdən kimi opera səhnəsində, xorda oxuyur, kimi orkestrin tərkibində çıxış edir, bəziləri operanın orkestr səslərinin köçürülməsində əziz müəllimlərinə kömək edirdilər.

Dahi Üzeyir bəyi sevən Azərbaycan xalqı isə **"Koroğlu"** operasının səhnədə təcəssüm olacağı günü, əziz bir bayramı gözləyən kimi gözləyirdilər.

30 aprel 1937-ci il – "Koroğlu" operasının premyera günü Azərbaycanda əsl musiqi təntənəsi yaşandı. Azərbaycanın artıq yetişmiş milli vokal ustaları öz gözəl, məharətli çıxışları ilə o gün adlarını milli musiqi tariximizin şərəfli səhifələrinə həkk etdilər. Bülbül, Gülarə İsgəndərova, Böyükağa Mustafayev, Qulam İsgəndərov, Əli Zülalov və başqaları xalqın sevimli sənətçiləri kimi alqışlandı. Operanın quruluşçu rejissoru İsmayıl Hidayətzadə, libretto müəllifləri Heydər Hüseynov və Məmməd Səid Ordubadi, rəssamı Rüstəm Mustafayev, dirijoru müəllif özü idi. "Koroğlu" operası milli operalarımızın məntiqli inkişafını göstərməklə yeni mərhələnin, yeni zirvənin fəth olunmasından xəbər verirdi.

Hələ 20-ci illərdən Azərbaycan operasının taleyinin yad ölkələrdən gəlmiş R.Qliyer, Y.Lyubarski kimilərə həvalə olunmasını təkid edən Mustafa Quliyevlər, Şövkət Məmmədovalar "Koroğlu" operasının ilk sədaları ilə tarixin heç də ürəkaçmayan səhifələrinə özlərinə yer aldılar. Üzeyir bəy bir daha sübut etdi ki, milli mədəniyyəti, milli qüruru yad mədəniyyətlərin II dərəcəli tərkib hissəsinə çevirmək olmaz.

Tale bir daha Üzeyir bəy Hacıbəylinin qələbəsini ümumxalq bayramına çevirdi.

Həmin tarixin şahidi 19 yaşlı Qara Qarayev 43 il sonra yazacaqdı: ***"Koroğlu"nun premyerası uğurla keçdi. Bu təkcə fror, böyük uğur, parlaq premyera deyildi. Bu nəsə tamam başqa bir şey idi - sevinc, həyəcan, göz yaşları...***

...Hər bir tamaşaçı, hətta ən cahili belə — anlayırdı ki, tale onu xalqının tarixində təkrarolunmaz hadisənin şahidi etmişdir. Və bu, həqiqətən, belə idi!...".

Bir il sonra, 1938-ci ildə Moskvada keçən Azərbaycan İncəsənəti Dekadası günləri "Koroğlu"ya iki dəfə baxıb məmnunluqla öz fikirlərini əsərin müəllifi ilə bölüşən, onun sağlığına badə qaldıran SSRİ-nin rəhbəri İ.V.Stalin nəhayət ki, bəstəkarlara da yüksək fəxri ad - SSRİ Xalq artisti adını vermək qərarına gəldi. İlk bu fəxri ada layiq görülən bəstəkar məhz Üzeyir Hacıbəyli oldu...

Q.Qarayev yazırdı: ***"...1938-ci ildə Moskvada keçən dekadada bəstəkarın şöhrəti göylərə ucaldı. Üzeyir Hacıbəyli musiqidə, siyasətdə, ictimai dairələrdə və respublika partiya təşkilatlarında qüdrətli bir şəxs oldu. Eyni zamanda o, çox səxavətli və sadə olaraq qalırdı. Bütün qohumlarına maddi cəhətdən***

yardım edir, evinin yaxınlığında yerləşən uşaq evinin hesabına böyük məbləğdə vəsaiti yardım olaraq köçürür, öz hesabına təqaüdlər təyin edirdi...".

Qara Qarayev burda ince bir mətləbə, Üzeyir bəyin təbiətinə xas olan bir keyfiyyətə işarə vurur. Üzeyir bəy həm də son dərəcə səxavətli bir insan idi. Özü olduqca sadə bir həyat tərzi sürsə də, ehtiyacı olan heç bir kəsi nəzərdən qaçırmazdı. Ailə başçısını müharibədə itirmiş ailələr, Moskvada, Leninqradda və s. şəhərlərdə təlabələr, ehtiyacı olan qonşular, yetimxana uşaqları - ondan müntəzəm yardım alırdılar. İş axtaran, şəraitsiz mənzillərdə yaşayan, müxtəlif yaradıcılıq və məişət problemləri ilə üzləşən yüzlərlə insanın ümidgahı, son pənahı idi Üzeyir bəy!

Moskva dekadasından sonra Ü.Hacıbəylinin həyatında yeni bir era başlayır. Uzun illər Azərbaycan Dövlət Konservatoriyasına rəhbərlik edir. A.Ter-Qevondyan öz rektor kreslosunu Ü.Hacıbəyliyə qaytarır. Azərbaycan Bəstəkarlar İttifaqı onu yeni rəhbər seçir, Ümumittifaq müsabiqələrində münsiflər heyətinin sədri və yə üzvü təyin olunur, SSRİ Ali Sovetinə deputat seçilir və bu kimi təyinatlar sayca artır. Lakin *cəmi üç il əvvəl 50 yaşını haqlayan* Üzeyir bəyin sənətə, səhnəyə gətirdiyi dostları, tələbələri, xalq artisti, əməkdar artist kimi fəxri adlar daşıyarkən nədənsə onun halal haqqını, fəxri adlarını vermək gecikirdi, yada düşmürdü. O isə içindəki tələtümləri yazdığı **"Koroğlu"** ilə bölüşürdü.

1945-ci ildə Üzeyir Hacıbəylinin 60 yaşını bütün xalq bir bayram kimi qarşıladı. 60 ilin 40-nı o sədaqətlə Vətənə, millətə xidmət etmişdi. Bu 40 ildə Avropada neçə yüz il, neçə bəstəkar nəslinin görə bildiyi işləri o görə bilmişdi. İndi ümumxalq məhəbbəti onun halal qazancı idi. Onu fərhlləndirən hadisələr də az deyildi. **"Arşın mal alan"** filmi çəkilmiş və dünyanın sevə-sevə baxdığı ekran şedevri kimi qəbul edilmişdi. Onun 30 ilden artıq tədqiq etdiyi elmi əsəri, nəhayət, başa çatmış, **"Azərbaycan xalq musiqisinin əsasları"** adıyla nəşr edilmişdi. Üzeyir bəy yeni təsis olunmuş Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdi. Akademiyada onun yaratdığı və adını daşıyan "İncəsənət" institutu yaradılmışdı. Gərgin zəhmət bahasına yaratdığı filarmoniyanın nəzdindəki simfonik orkestr də 1944-cü ildən onun adını daşıyırdı. Ən önəmlisi isə o idi ki, canı qədər sevdiyi Vətəninin - Azərbaycanın Dövlət Himninin bəstəkarı kimi yüksək şərəfə nail olmuşdu. Artıq onun taleyi Vətəninin, millətinin taleyi ilə ayrılmaz bir vəhdət idi.

1995-ci ildə dahi bəstəkarın 100 illik yubileyində Azərbaycanın böyük oğullarından biri, ümummilli liderimiz Heydər Əliyev demişdi: ***"...Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin yaranmasında, formalaşmasında, inkişaf etməsində Ü.Hacıbəylinin əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. Azərbaycanlılar - gənclər, vətəndaşlarımız məhz Ü.Hacıbəylinin əsərlərindən ruhlanaraq, Vətənimizi daha çox sevmişlər; onun musiqisini dinləyərək, onun əsərlərindən ireli gələn fikirlərin təsiri altına düşərək hiss etmişlər ki, Vətən, ölkə, millət hər bir insan üçün nə qədər əzizdir, doğmadır...".***

Bu sözlərlə o böyük insana, bəstəkara, alimə, jurnalistə, müəllimə, ictimai xadimə xalqımızın sonsuz sevgisini ifadə edən ulu öndər - müstəqil Azərbaycanın müdrik prezidenti - Heydər Əliyev 1995-ci ildən Üzeyir Hacıbəylinin doğum gününün - 18 sentyabrın - Milli Musiqi Günü kimi qeyd olunması barədə fərman imzalamışdır.

Bu gün də Üzeyir Hacıbəylinin əsərləri Çindən ABŞ-a kimi bir çox ölkələrdə səslənir, sevilir. Doğma Azərbaycanın açılan hər səhəri onun yadigarı olan Dövlət Himninizin sədaları ilə çıxan Günəşi salamlayır. Onun adı xalqımız üçün Vətən - Azərbaycan kəlməsi qədər əziz və müqəddəsdir. Ona həsr etdiyi gözəl bir şeirində Səməd Vurğun demişdi:

O bu gün də bizimlə addımlayır yanaşı,
"Koroğlu"dan oxuyur, yenə zəfər ordumuz.
Ey Füzuli şeirinin bir bəstəkar qardaşı,
Şöhrət tapdı adınla bizim ana yurdumuz..

Sərdar FƏRƏCOV,
Üzeyir Hacıbəyli Ev-Muzeyinin direktoru,
Azərbaycan Bəstəkarlar İttifaqının katibi,
Əməkdar İncəsənət Xadimi.